2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində
Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş
11 dekabr 2014-cü il tarixli 18 saylı müraciətə baxılmasına dair
Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 111 saylı Zaqatala – Balakən seçki dairəsindən Zaqatala bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Mübariz İsaq oğlu 11 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizədliyinin qeydə alınması üçün zəruri olan sayda seçici imzası toplayaraq imza vərəqəsi və ona əlavə edilmiş sənədləri dairə seçki komissiyasına təqdim etsə də onun namizədliyinin qeydə alınıb-alınmaması barədə qərarın ona təqdim edilməməsini bildirərək hüquqlarının bərpa edilməsini və dairə seçki komissiyası rəhbərləri barəsində müvafiq tədbir görülməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından təqdim edilmiş 23 noyabr 2014-cü il tarixli Aktın surətindən müəyyən edilir ki, 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 111 saylı Zaqatala – Balakən seçki dairəsindən Zaqatala bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş M.İ.İsmayılov bələdiyyə üzvlüyünə namizədliyinin qeydə alınması üçün imza vərəqəsi və ona əlavə edilmiş digər sənədləri dairə seçki komissiyasına 23 noyabr 2014-cü ildə təqdim etmişdir. M.İ.İsmayılov bu barədə tərtib edilmiş müvafiq Aktı imzalamaqdan imtina etmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən irəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18.00-dək seçki sənədlərini müvafiq seçki komissiyasına təqdim etməlidir. 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində namizədliyin qeydə alınması üçün imza vərəqələri və ona əlavə edilmiş digər sənədlərin dairə seçki komissiyasına təqdim edilməsi müddəti 22 noyabr 2014-cü il saat 18:00-da başa çatmışdır.

"Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması, imza vərəqələrinin və onlara əlavə edilməli olan sənədlərin dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında Təlimat"ın 2.2-ci bəndinə görə yuxarıda göstərilən müddətdən sonra təqdim olunan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər qanunla müəyyən edilmiş müddətdə verilmiş müvafiq sənədlərin doğurduğu hüquqi nəticəni yaratmır. Dairə seçki komissiyası bu halı öz qərarı ilə rəsmiləşdirməlidir.

111 saylı Zaqatala–Balakən seçki dairəsinin dairə seçki komissiyasının 24 noyabr 2014-cü il tarixli 14/37 saylı qərarı ilə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş M.İ.İsmayılovun Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinin tələblərinin pozulması ilə təqdim etdiyi sənədlər geri qaytarılmışdır.

Qeyd edilməsi zəruridir ki, M.İ.İsmayılov 04 dekabr 2014-cü ildə Mərkəzi Seçki Komissiyasına teleqram göndərərək sənədlərini 111 saylı DSK-ya gec təqdim etməsini etiraf etmiş və gecikməni nəzərə alaraq qeydiyyata alınmasını xahiş etmişdir.

Müraciət etmiş şəxsə araşdırılma aparılması barədə məlumat verilməsi və komissiyanın iclasına dəvət edilməsi onun respublikadan kənarda olması ilə əlaqədar mümkün olmamışdır.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə müraciətin təmin edilməsi və dairə seçki komissiyasının qərarının ləğv edilməsi üçün əsaslar müəyyən edilməmişdir.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 111 saylı Zaqatala – Balakən seçki dairəsi dairə seçki komissiyasının M.İ.İsmayılovun namizədliyin qeydə alınması üçün Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinin tələblərinin pozulması ilə təqdim etdiyi sənədlərin geri qaytarılması barədə 24 noyabr 2014-cü il tarixli 14/37 saylı qərarı qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənlər əsas götürülərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 28.4-cü, 58.1-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. 111 saylı Zaqatala – Balakən seçki dairəsindən Zaqatala bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Mübariz İsaq oğlunun 11 dekabr 2014-cü il tarixli 18 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. 111 saylı Zaqatala – Balakən seçki dairəsi dairə seçki komissiyasının İsmayılov Mübariz İsaq oğlu barəsində 24 noyabr 2014-cü il tarixli 14/37 saylı qərarı qüvvədə saxlanılsın.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Müavin | Natiq Məmmədov |
| Katib | Arifə Muxtarova |
| Üzvlər | Şaitdin Əliyev |
| | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Bəxşeyiş Əsgərov |
| | Etibar Quliyev |